*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 69-75*

https://doi.org/10.62837/2025.10.69

**XƏYALƏ QASIMOVA**
**ADU**
**e-mail: gasimova.x@mail.ru**

# İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI ŞAGİRDLƏRDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNİN SƏMƏRƏLİ YOLLARI

**Xülasə**

İngilis dili tədrisi zamanı şagirdlər danışmağı, fikirlərini ifadə etməyi, fikirlərini bölüşməyi və məlumat mübadiləsini öyrənirlər. Hər bir sinifdə öz qabiliyyətləri, biliyi, özünə inamı, motivasiyası və öyrənmə üslubları ilə fərqlənən müxtəlif şagirdlərin olduğunu nəzərə alaraq, müəllim onlara xas xüsusiyyətlərindən asılı olaraq bacarıqlarını inkişaf etdirməyə kömək edəcək uyğun mühitlə təmin etməlidir.

Aşağı siniflərdən başlayaraq şagirdlərinə dinləməyi və danışmağı öyrətmək müəllimlər üçün tələbedilən və məsuliyyətli işdir. Bununla belə, müəllimlər uşaqların dinləmə bacarıqlarını və strategiyalarını təkminləşdirmək, mükəmməl ünsiyyət üçün dildən istifadə imkanlarına malik olmaq, əyləncəli, maraqlı və mənalı müxtəlif dinləmə və danışma fəaliyyətləri ilə məşğul olmaq ehtiyaclarını başa düşsələr, onlar uşaqlara dilin mənimsənilməsi üçün əsaslı zəmin yaratmağa kömək edəcəklər.

Sadə təqliddən tutmuş müəyyən lüğət elementlərinin, tələffüz üslublarının, qrammatik biliklərin, kommunikativ üsulların şüurlu mübadiləsinə qədər kommunikativ mühitdə fəal rol oynamaq üçün yanaşmaların birləşdirilməsi, koqnitiv üslubların dəyişdirilməsi, müxtəlif üsul və vasitələrin qarışdırılması və uyğunlaşdırılması – məs. mahnılar, oyunlar, musiqilər, qafiyələr, dialoqlar və s. – şagirdlərə maksimum müxtəliflik təqdim edir və öz növbəsində onları geniş dil öyrənmə imkanları ilə təmin edir. İngilis dili bilikləri inkişaf etdikcə və daha yüksək səviyyəyə keçdikcə şagirdlərin digər dil bacarıqlarının formalaşdırılmasına kömək edəcək yeni strategiyaların qurulması ayrıca vacib rol oynayır.

***Açar sözlər: diskurs bacarığı, koqnitiv üslub, kommunikativ səmərəlilik***

Şifahi nitq bacarıqları aşağı siniflərdən başlayaraq formalaşdırılan ilkin bacarıqlardan biridir. Aşağı siniflərdə ingilis dilinin öyrədilməsi tədris və kommunikativ məqsədlər daşıyır. Tədrisin məqsədi şagirdlərin dünyagörüşünün inkişafı ilə müəyyən edilir. Kommunikativ məqsəd isə ingilis dilini şagirdlərin öyrəndiyi başqa fənlərdən fərqləndirən cəhətdir. Kommunikativ məqsəd dili əməli surətdə bilmək deməkdir və bu da, öz növbəsində, şifahi nitq, oxu və yazı vərdişlərinə yiyələnməkdir. Kommuniksiya prosesində tərəflərin yaş həddi, sosial mənsubluğu, bilik və məqsədi mühüm rol oynayır [2, s.14].

Şifahi nitq prosesi düzgün cümlə qurmaqdan tutmuş, uyğun söz və ifadələrdən istifadə edərək fikri çatdırmaq bacarığına qədər bir sıra dil

bacarıqlarından kompleks şəkildə birbaşa və məharətlə istifadə etməyi tələb edir. Səmərəli nəticə üçün şagirdlərin yaş hədləri və maraq dairələri nəzərə alınmalıdır. Şifahi nitqin inkişaf etdirilməsi zamanı müəllimlər müəyyən problemlərlə qarşılaşır. Şagirdlərlə bağlı yaranan əsas çətinliklər aşağıdakılardır: [3. s.12]

*İstəksiz Tələbələr*–Şagirdlər utancaq olduqları üçün sinif fəaliyyətlərində iştirak etməkdən çəkinirlər və danışmaqda rahatlıq və əminlik hiss etmirlər. Sinif fəaliyyətlərində iştirakın olmamasına səbəb ola biləcək digər amillər: (a) tələbələrin səhv etməkdən qorxması; (b) mövzuların maraqlı olmaması; (c) sinifdə uyğun şəraitin yaradılmaması.

*Yanlış tələffüz*- Şagirdlər fərqli səsləri tələffüz etməkdə çətinlik çəkirlər.

*Lüğət bazasının az olması*- Lüğət ibtidai səviyyədə xarici dilin öyrənilməsinin əsasını təşkil edir. Şagirdlər ünsiyyətdə ingilis dilindən istifadə edə bilmək üçün lazımi lüğət və dil strukturlarını mənimsəməlidirlər. Əslində, tələbələrin əksəriyyəti yeni lüğəti mənimsəməkdə çətinlik çəkirlər. Bu isə çox vaxt uşaqlara danışmaqda və başqaları ilə ünsiyyət qurmaqda çətinlik yaradır. Bu problemləri aradan qaldırmaq üçün iki rəhbər prinsip təklif edilir: (1) İlk növbədə məna olmalıdır: əgər uşaqlar danışıq dilini başa düşməsələr, onu öyrənə bilmirlər; (2) Diskurs bacarıqlarını öyrənmək üçün uşaqlar həm diskursda iştirak etməli, həm də iştirak üçün bilik və bacarıqlardan istifadə etməlidir. Bu o deməkdir ki, şagirdlər real şəkildə danışmağa cəlb edilməlidirlər [5. s.29].

Şifahi nitq bacarıqlarının öyrədilməsi ilə bağlı yanaşmalar uzun müddətdir metodoloji müzakirələrin mərkəzində olmuşdur. Onlara müəllim və dərslik qarşılıqlı əlaqəsinin spesifik xüsusiyyətlərinə diqqət yetirən birbaşa yanaşmaları, mövzunun idarə edilməsini, sual strategiyaları misal göstərə bilərik

Metod sinifdə baş verən prosesləri, tədrisin məzmununun seçimini, müəllimin rollarını, şagirdin rollarını, təlimat materiallarının rolunu və sinifdə tətbiq olunan tapşırıq və fəaliyyət növlərini əhatə edir. Öz məqsədlərini təcrübələr, davranışlar və texnikalar vasitəsilə yerinə yetirir.

İngilis dilinin xarici dil kimi tədrisində istifadə olunan metodlar çoxsaylı və müxtəlifdir. Hər bir metod bir-birindən dil tədrisinin yeni istiqamətləri ilə yanaşı, dilin tədrisinin məqsədi, dilin əsas mahiyyətinin dərk edilməsi, dilin məzmunu, ana dilinin rolu, müəllimin rolu, yaddaşla bağlı prinsiplər və başqa məsələlərlə yanaşı, hər bir şagird qrupunun fərdi şəraiti kimi dil tədrisinin fundamental anlayışlarına münasibətinə görə fərqlənir [7. s.32]. Bəzi metodlar aşağıda verilmişdir:

*Audio- Linqual metod* - Audio-Linqual üsul aşağı siniflərdə tətbiq olunaraq şagirdlərdə şifahi nitqin inkişafına əlverişli şərait yaradır. Bu metodun iki mühüm xüsusiyyəti var: xor və dialoqlarla məşq. Dialoqlar öyrənənlərdə qrammatik biliklərin formalaşmasını təmin edir. Bundan əlavə, müəllim dialoqu təqdim etmək üçün gəlinciklərdən də istifadə edə bilər. Bu metod istəksiz və ya utancaq şagirdlər

üçün çox faydalı olacaqdır. Çünki, böyüklərlə deyil, gəlinciklərlə danışmaq utancaq şagirdlər üçün daha rahatdır.

*Kommunikativ metod-* Bu metod şagirdlərin öyrənə bilmələrini təmin etmək üçün sinif əsaslı dil öyrənməsini tələbələrin ehtiyac duyduğu dillə birləşdirən bir yanaşma və fəlsəfi oriyentasiyadır Bu metodun məqsədlərindən biri şagirdlərin səlis danışıq qabiliyyətini inkişaf etdirməkdir. Buna görə də, müəllim ünsiyyət strategiyalarından istifadə etməli, anlaşılmazlığı düzəltməli və ünsiyyətin pozulmasının qarşısını almaq üçün mükəmməl sinif fəaliyyəti qurmağı bacarmalıdır.

Brown şifahi nitq texnikasının aşağıdakı yeddi prinsipini təklif edir: [4. s.25]

1. Daxili həvəsləndirici üsulları təmin edin.
2. Mənalı kontekstlərdə orijinal dildən istifadəni təşviq edin.
3. Müvafiq rəy və düzəliş təqdim edin.
4. Danışma və dinləmə arasında təbii əlaqədən istifadə edin.
5. Şagirdlərə şifahi ünsiyyətə başlamaq imkanı verin.
6. Danışıq strategiyalarının inkişafını təşviq edin.

*Səssiz üsul* - 1970 və 1980-ci illərdə hazırlanmış Səssiz üsul istifadə olunan digər üsullardan biridir. Metodun banisi Caleb Gattegno metodu öyrənmənin kəşfə və yaratmağa əsaslandığına inanaraq bu metodu yaratmışdır. Gattegno metodunun koqnitiv yanaşma ilə ortaq bəzi əsas prinsipləri var. Öyrənmə həmişə tədrisdən üstün olmalıdır, bu isə o deməkdir ki, dil öyrənənlər mümkün qədər fəal olmalı və müəllimin fəaliyyəti, xüsusən nitqi məhdud olmalıdır. Buna görə də müəllim jestlərdən, işarələrdən, şəkillərdən, rənglərdən və cədvəllərdən istifadə edərək çox vaxt səssiz qalır. Müəllim çox vaxt sakit olmasına baxmayaraq öyrətmənin daim mərkəzində dayanır. Larsen Frimana görə metodun məqsədi dil öyrənənlərin hədəf dildə özlərini, hisslərini, istəklərini və düşüncələrini ifadə etmələrini təmin etməkdir [8. s.46].

*Təklif üsulu* - Metodoloqlar həmişə dil öyrənmə və tədris prosesini təkmilləşdirmək, sürətləndirmək və asanlaşdırmaq üçün bir yol tapmağa cəhd edirlər. Təklif üsulu müəllimin danışıq qabiliyyətini məhdudlaşdıraraq və tələbələrə danışmağa imkan verərək öyrənməni sürətləndirir və asanlaşdırır. Buna görə də Təklif üsulu bəzən sürətli öyrənmə də adlanır. Öyrənmə müsbət atmosferdə baş verməlidir və həmişə əyləncəli olmalıdır.

Yuxarıda sadalanan metod və üsullarla yanaşı sadədən mürəkkəbə, müstəqillik, şagird fəallığının təmin edilməsi və eləcə də müəllim peşəkarlığı prinsiplərindən çıxış edərək şagirdlərdə şifahi nitq bacarığının formalaşdırılması zamanı öyrənilən biliklərin qısa müddətli yaddaşdan uzun müddətli yaddaşa ötürülməsində bir sıra fəaliyyətlərin eyni zamanda tapşırıq və çalışmaların mühüm rolu vardır.

Müəllimlərin şifahi nitqin psixoloji mahiyyətini anlaması şagirdlərin nitq motivasiysını artırır və şifahi nitq fəaliyyətinin onların psixoloji inkişafına müsbət

təsirini başa düşürlər. Eyni zamanda, sağlam psixoloji mühit və düzgün motivasiya uşaqlara öz səhvlərini tez görməyə və müzakirədə olan ümumi səhvləri görməyə imkan verir. Şifahi nitq fəaliyyətini sadədə mürəkkəbə doğru təşkili onları inkişaf səviyyəsini formalaşdırır və şagirdlər nitqdə çətinlikdən daha az əziyyət çəkirlər. İngilis dilində şifahi nitqi, müxtəlif hadisə və şəkilləri təsvirdə istifadə etməklə kiçik dialoqlar, qısa cümlələr, ifadələr və s. öyrənən şagirdlər üçün səlis nitq qabiliyyətini formalaşdırılmasını, idrak fəaliyyətini vurğulamağı, səlis danışıq təcrübəsini öyrətmək lazımdır. Buna əsasən, müəllimlərin praktikada şifahi nitqi inkişaf etdirən çalışmalardan istifadəsi daha məqsədəuyğundur [6. s.16].

Çalışmalar nitq bacarığının inkişafında mühüm əhəmiyyət kəsb edir. Çalışmaların təşkilində müəllimlərin bəzi məqamları nəzərə almaları daha məqsədəuyğundur.

1. Müəllimin çalışmanın necə həll edilməsi ilə bağlı izahı aydın və qısa olmalıdır.
2. Çalışma yalnız bir problemin aradan qaldırılmasına xidmət etməlidir.
3. Sinifdə əvvəlcə biliyi möhkəmləndirən, daha sonra bacarıq və vərdişləri inkişaf etdirən çalışmalar işlənməlidir.

Danışıq öyrətməyin məqsədi kommunikativ səmərəlilikdir. Şagirdlərə nitqdə kommunikativ səmərəliliyi inkişaf etdirməkdə kömək etmək üçün müəllimlər dil daxiletməsini, strukturlaşdırılmış çıxışı və kommunikativ çıxışı birləşdirən balanslaşdırılmış fəaliyyət yanaşmasından istifadə edə bilərlər. Şifahi nitqi inkişaf etdirən zaman müxtəlif fəaliyyət növlərindən istifadə olunur [1. s.8]. Əsas istifadə olunan fəaliyyət növləri aşağıdakılardır:

- *Müzakirə*- Məzmun əsaslı dərsdən sonra müxtəlif mövzular üzrə müzakirə aparıla bilər. Müzakirədən əvvəl müzakirə fəaliyyətinin məqsədinin müəllim tərəfindən müəyyən edilməsi vacibdir.
- *Simulyasiyalar*- Simulyasiyalarda şagirdlər real mühit yaratmaq üçün sinifə müxtəlif əşyalar gətirə bilərlər. Məsələn, şagird müğənni kimi çıxış edirsə, oxumaq üçün mikrofon gətirir və s.
- *Rollu oyunlar*-Tələbələr özlərini müxtəlif sosial kontekstlərdə olduqlarını və müxtəlif sosial rollara malik olduqlarını iddia edirlər. Rol oyunu fəaliyyətlərində müəllim şagirdlərdən onların kim olduqları, nə düşündükləri və ya nə hiss etdikləri kimi məlumatlar istəyir. Belə ki, müəllim şagirdə deyə bilər: "You are David, you go to the doctor and tell him what happened last night."
- *Beyin Fırtınası*-Müəyyən bir mövzuda şagirdlər məhdud vaxt ərzində ideyalar yarada bilərlər. Kontekstdən asılı olaraq istər fərdi, istərsə də qrup beyin fırtınası effektivdir və öyrənənlər tez və sərbəst şəkildə ideyalar yaradırlar.
- *Hekayə*-Şagirdlər əvvəlcədən kimdənsə eşitdikləri nağılı və ya hekayəni qısaca ümumiləşdirə bilər və ya sinif yoldaşlarına danışmaq üçün öz hekayələrini yarada bilərlər.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri № 10, 2025 Səh. 69-75* ISSN 2224-9257

- *Məlumat boşluğu*-Bu fəaliyyətdə şagirdlərin cütlər şəklində işləməsi nəzərdə tutulur. Bir şagird digər şagirdin məlumatlarını öyrənir və şagirdlər öz məlumatlarını paylaşırlar. Hər bir tərəfdaşın məlumtı mühüm rol oynayır, tərəfdaşlar ehtiyac duyulan məlumatları tamamlayır
- *Müsahibə*-Şagirdlər yoldaşları ilə seçilmiş mövzular üzrə müsahibələr apara bilərlər. Müəllim şagirdlərin hansı növ sualları verə biləcəklərini və ya rubrikləri təqdim edir.
- *Hekayənin tamamlanması*-Bu fəaliyyət üçün müəllim hekayə danışmağa başlayır, lakin bir neçə cümlədən sonra hekayəni dayandırır. Sonra hər bir şagird, əvvəlkinin dayandığı yerdən nəql etməyə başlayır.
- *Hesabat*-Şagirdlər gündəlik həyatlarında yaşadıqları ən maraqlı hadisələri xəbər kimi dostlarına danışırlar.
- *Oyun kartları* -Bu oyunda tələbələr dörd nəfərdən ibarət qruplar təşkil etməlidirlər. Şagirdlər tam cümlələrlə cavab vermək üçün bir-birlərinə açıq suallar verirlər.
- *Şəkil təsviri*-Bu fəaliyyət üçün şagirdlər qruplar yaradır və hər qrupa fərqli şəkil verilir. Şagirdlər şəkli öz qrupları ilə müzakirə edir, sonra hər bir qrupdan bir nəfər şəkli onlara izah edir. Bu fəaliyyət şagirdlərin yaradıcılığını və təxəyyülünü, eləcə də ictimai danışma bacarıqlarını inkişaf etdirir .
- *Fərqləri tapın* -Bu fəaliyyət üçün şagirdlər cüt-cüt işləyə bilərlər və hər bir cütə iki fərqli şəkil verilir, məsələn, oğlanların futbol oynayan şəkli və tennis oynayan qızların şəkli. Şagirdlər şəkillərdəki oxşarlıqları və yaxud fərqləri cüt-cüt müzakirə edirlər.

İngilis dilində danışıq zamanı iki və daha çox şəxs arasında dialoqun olması nitqi sürətləndirən amillərdən biridir. Çünki, tez-tez ünsiyyət qurulduğu zaman şagirdlər arasında məlumat mübadiləsi və müzakirəsi daha çox baş verir. Burada tərəflərin bir- biriylə ünsiyyətdə olduğu zaman informasiya almaq və informasiya vermək imkanlarının olması onların nitq vərdişlərinin inkişafına səbəb olur. Yuxarıda təhlil etdiyimiz fəaliyyət növlərinin əksəriyyətinin cüt və ya qruplar şəklində həyata keçirilməsi şagirdlərdə şifahi nitqin inkişafına təkan verir. Şagirdlər arasında passiv ünsiyyət yaranarsa, bu zaman həmin şagirdlərin yalnız dinləmə mövqeyində iştirak etməsi şifahi nitqin inkişafına mənfi təsir göstərir. Müəllim dərs zamanı bütün bunları nəzərə alaraq ünsiyyət quran hər bir tərəfin aktiv olduğuna diqqət yetirməlidir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Anderson N.J. The role of metacognition in second language teaching and learning//-England: ERIC Digest, - April 2002, №2

2. Cameron, L. “Teaching languages to young learners”. Cambridge: Cambridge University Press, 2001
3. Diyanti, Y. Teaching listening and speaking to young learners//-Negeri Yogyakarta: Teachers Training Module, 2006, №5
4. Harmer, J. How to teach English. - Essex: Pearson Education Limited, 2007
5. Pinter, A. Teaching young language learners. - Oxford: Oxford University Press, 2006
6. Richards J.C. Teaching listening and speaking: From theory to practice//-Cambridge: Cambridge University Press, 2008, №3
7. Saville-Troike M. Introducing second language acquisition. - Cambridge: Cambridge University Press, 2006
8. Terry, C. How to teach speaking in an EFL class, San Miguel: Ministry of Education, 2008

**KHAYALA GASIMOVA**

## THE EFFECTİVE WAYS TO DEVELOP ORAL SPEECH SKİLLS İN STUDENTS DURİNG ENGLİSH LANGUAGE TEACHİNG

### Summary

During English language instruction, students learn to speak, express their thoughts, share ideas, and exchange information. Considering that every class consists of students with different abilities, knowledge, self-confidence, motivation, and learning styles, the teacher should provide a suitable environment that helps them develop their skills according to their individual characteristics.

Teaching listening and speaking skills to students from lower grades is a demanding and responsible task for teachers. However, if teachers understand the need for students to improve their listening skills and strategies, to have opportunities to use the language for effective communication, and to engage in fun, interesting, and meaningful listening and speaking activities, they will help create a strong foundation for language acquisition.

From simple imitation to the conscious exchange of certain vocabulary elements, pronunciation patterns, grammatical knowledge, and communicative techniques, combining different approaches, modifying cognitive styles, and mixing and adapting various methods and tools—such as songs, games, music, rhymes, dialogues, etc.—provides students with maximum variety and, in turn, gives them broad opportunities for language learning. As students’ English language proficiency develops and they move to higher levels, establishing new strategies that help shape their other language skills plays an especially important role.

***Keywords:*** *discourse competence, cognitive style, communicative efficiency*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 69-75*

# ЭФФЕКТИВНЫЕ СПОСОБЫ РАЗВИТИЯ УСТНОЙ РЕЧИ У СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ

## РЕЗЮМЕ

Во время обучения английскому языку ученики учат говорить, выражать свои мысли, делиться мнениями и обмениваться информацией. Учитывая, что в каждом классе есть ученики с разными способностями, знаниями, уровнем уверенности, мотивацией и стилями обучения, учитель должен создать соответствующую атмосферу, которая будет способствовать развитию их навыков в зависимости от этих особенностей.

Преподавание слушания и разговорной речи начиная с младших классов — это требуемая и ответственная задача для учителей. Однако, если учителя понимают необходимость совершенствования навыков слушания и стратегий учеников, возможностей использования языка для эффективной коммуникации, а также потребность в разнообразных, интересных и значимых занятиях по слушанию и разговорной речи, они смогут создать прочную основу для усвоения языка.

Комбинирование подходов, начиная от простого подражания до сознательного обмена определёнными элементами словарного запаса, произносительных стилей, грамматических знаний и коммуникативных методов в контексте активного общения, изменение когнитивных стилей, смешивание и адаптация различных методов и средств (например, песен, игр, музыки, стихов, диалогов и т. д.) предоставляет ученикам максимальное разнообразие и, в свою очередь, обеспечивает их широкими возможностями для изучения языка. По мере развития знаний английского языка и перехода на более высокие уровни, крайне важную роль играет создание новых стратегий, которые помогут ученикам развить другие языковые навыки.

***Ключевые слова:*** *дискурсивная компетенция, когнитивный стиль, коммуникативная эффективность.*

**Rəyçi : fil.f.d.,dos. S.Ə.Cəfərova**